Bu bir xalq qəzetidi
ƏDALƏT

## Azərbaycan, Türkiyə və Gürcüstan hərbçilərinin birgə təlimi başlayıb



**Gürcüstanın Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2021" kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, nəzəri və praktiki hissədən ibarət olan təlimdə üç ölkənin hərbi qulluqçuları və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra edəcəklər.

**Təlim oktyabrın 8-dək davam edəcək.**

## Kəlbəcərdə radio və televiziya yayımı təmin edildi

**İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun, o cümlədən radio-televiziya yayım stansiyalarının işinin bərpası istiqamətində işlər davam etdirilir.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən məlumata görə, Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə istismara verilib.

Bununla da Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radionun yayımı təmin olunub.



Qeyd edək ki, Xocavənd rayonunun Hadrut qəsəbəsinin Şahyeri kəndi ərazisində yerləşən Şahyeri stansiyasının işinin bərpası istiqamətində də işlərə başlanılıb.

Cari ilin sonunadək stansiyanın istismara veriləcəyi gözlənilir. Sözügedən stansiyanın istismara verilməsi nəticəsində Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisində radio-televiziya yayımı təmin olunacaqdır.

Buna paralel olaraq, Qubadlı stansiyasının infrastrukturunun yenidən qurulması və Zəngilan rayonu ərazisində yerləşən mövcud Mincivan stansiyasında müvafiq rekonstruksiya işləri görülməklə bu rayonların ərazilərində radio-televiziya yayımlarının bərpası üzrə müvafiq işlər aparılır.

**Qeyd edək ki, Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılaraq, 31 dekabr 2020-ci il tarixindən etibarən radio-televiziya yayımının təşkili Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib.**

## Medianın İnkişafı Agentliyində təlim keçirilir



**Oktyabrın 4-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) təşəbbüsü ilə "Lazarus Training" təşkilatı tərəfindən jurnalistlər üçün təhlükəli bölgələrdə fəaliyyət, mina partlayışlarından xilas olma və ilkin tibbi yardım mövzularında təlimlərin keçirilməsinə başlanılıb.**

Adalet.az xəbər verir ki, təlimlərə müxtəlif media subyektlərinin 40-dək nümayəndəsi qatılıb. Hər birində 20 nəfərin olduğu iki qrupda keçirilən təlim oktyabrın 8-dək davam edəcək. İngilis dilində təşkil olunan təlimdə jurnalistlər üçün Azərbaycan dilində sinxron tərcümə imkanı yaradılıb. Qeyd edək ki, İngiltərədə yerləşən "Lazarus Training" təşkilatı müxtəlif qurumlar və şirkətlər üçün ilkin tibbi yardım və tibbi təhsil üzrə təlimlərin keçirilməsi sahəsində ixtisaslaşıb.

## DİN: "2 ton 773 kiloqram narkotik maddə dövriyyədən çıxarılıb"

**2021-ci il yanvarın 1-dən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində 6 420 fakt aşkarlanıb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin yaydığı məlumatda qeyd edilib.**

Bildirilib ki, DİN əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan kompleks əməliyyat-axtarış, əməliyyat-istintaq tədbirləri nəticəsində 2021-ci il yanvarın 1-dən bu günə qədər 6 420 fakt aşkarlanıb. Onlardan 2 206 satış, 3 763 saxlama, 393 kultivasiya-əkin və 58 digər hallar olub. Ümumillikdə 2 ton 773 kiloqram narkotik, 230 kiloqram psixotrop maddə aşkar olunaraq qanunsuz dövriyyədən çıxarılıb.

## Vaksindən virusa yoluxmaq mümkündürmü?



**Vaksindən koronavirusa yoluxmaq barədə səsləndirilən fikirlərin elmi əsası yoxdur. Bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.**

T.Eyvazov bildirib ki, əgər insan vaksin vurduran ərəfədə və yaxud sonra virusa yoluxursa, bunu peyvəndlə əlaqələndirmək doğru deyil:

"Vaksinlərin tərkibində canlı virus olmadığına görə onların istifadəsindən yoluxmaq mümkün deyil. İstər vaksin vurulan ərəfədə, istərsə də sonra insan virusa yoluxa bilər və bu gizli dövrdən sonra (2-14 gün arası) meydana çıxa bilər. Bu yoluxmanın səbəbi vaksin deyil, viruslu insanla təmasda olmaqdır".

Qeyd edək ki, Azərbaycanda yanvarın 18-dən etibarən vaksinasiya prosesinə başlanılıb. Hazırkı dövrədək ölkədə vurulan vaksinlərin ümumi sayı 8 623 360, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 4 778 843, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 3 844 517 təşkil edir.(trend)

## Peyğəmbərin karikaturasını çəkən rəssam yanaraq öldü



**Məhəmməd peyğəmbərin karikaturasını çəkən isveçli rəssam Lars Vilks və onun iki mühafizəçisi ölüb.**

Adalet.az xəbər verir ki, bu məlumatı SVT televiziyası yayıb. Məlumata görə, Lars Vilksin avtomobili İsveçin cənubunda yük maşını ilə toqquşub. Toqquşmadan sonra hər iki maşın yanıb. İnsidentin qəza olub-olmadığı hələlik müəyyən etmək mümkün olmayıb. Polis yük avtomobilinin sürücüsünü xəstəxanada dindirib.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 83 (5915) 5 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

# İlham Əliyev: "Mən Suqovuşandayam... Mən Qarabağdayam, bəs siz haradasınız?"



Bax:səh-2

## Buğda çörəyi ilə bağlı dövlət standartı təsdiq edilib



**İstehlakçıların yüksək keyfiyyətli (əla, 1-ci, 2-ci və kəpəkli un çörəyi) çörəklə təmin olunması üçün sərtləşdirilmiş tələbləri özündə ehtiva edən AZS 899:2021 "Buğda unundan hazırlanan çörək. Texniki şərtlər" dövlət standartı təsdiq edilib.**

Standart İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən Adalet.az-a verilən məlumata görə, xidmətin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs tərəfindən hazırlanıb.

Qeyd edək ki, son dövr ərzində çörək sənayesi sahəsində dayanıqlı keyfiyyət meyarlarının təmin edilməsi məqsədilə AZS 888:2020 - "Buğda. Texniki şərtlər." və AZS 894:2021 - "Çörək sənayesi üçün buğda unu. Texniki şərtlər." dövlət standartları da qəbul edilib. Standart layihələrinin müzakirəsində Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər. Yeni dövlət standartı ölkə ərazisində aparılan elmi-tədqiqat işləri, beynəlxalq və regional standartlar əsasında hazırlanıb və təsdiq edilərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

## Koronavirus ən çox Bakının bu rayonunda yayılıb



**Bakıda koronavirus infeksiyasının ən geniş yayıldığı ərazilər məlum olub.**

Adalet.az xəbər verir ki, paytaxt üzrə ən yüksək yoluxma yenidən Binəqədi rayonunda qeydə alınıb.

Bakıda aşkarlanan yoluxma faktlarının 14,6 %-i bu rayonun payına düşür. Sonrakı yerlərdə 13,6 %-lə Xətai, 11,8 %-lə Yasamal və Sabunçu, 8,4 %-lə Suraxanı, 7,8 %-lə Nərimanov, 7,6 %-lə Nəsimi, 7,5 %-lə Xəzər, 7,2 %-lə Nizami, 4,9 %-lə Səbail, 4,4 %-lə Qaradağ, 0,5 %-lə isə Pirallahı qərarlaşıb.

## Xocavənddə sürücülər polisin «Saxla» əmrinə tabe olmadılar

**Xocavənddə polisin "Saxla" əmrinə tabe olmayan sürücülər saxlanılıb. Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.**





Oktyabrın 2-də saat 4 radələrində işğaldan azad olunmuş Xocavənd rayonunun Böyük Tağlar kəndi ərazisində yerləşən nəzarət postunda İmişli rayon sakinləri Q.Talıbovun idarə etdiyi "Shacman" və R.Quliyevin idarə etdiyi "Hovo" markalı avtomobillərə "Saxla" işarəsi verilmiş, lakin sürücülər tabesizlik göstərərək hərəkəti davam etdirmişlər.

Görülmüş tədbirlərlə onlar saxlanılmışlar. Araşdırmalarla Q.Talıbovun sərnişini C.Məmmədovun və R.Quliyevin sərnişini N.Tapdıqovun işğaldan azad olunmuş ərazilərə keçmək üçün müvafiq icazələrinin olmaması müəyyən edilmişdir. "Shacman" markalı avtomobilin yük yerinə baxış zamanı oradan "Altay" markalı traktor, "Hovo" markalı avtomobilin yük yerinə baxış zamanı isə dəmir və əlvan metallar aşkar edilmişdir.

**Onlar RPŞ-yə gətirilmiş və toplanmış materialla birgə rayon məhkəməsinə göndərilmişlər.**

## Azad olunan ərazilərdə aşkarlanan minaların sayı açıqlandı



**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.**

ANAMA-dan Adalet.az-a verilən məlumata görə, sentyabrın 1-dən oktyabrın 2-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 429, tank əleyhinə 83 mina və 533 ədəd partlamamış hərbi sursat aşkarlanıb. Nəticədə 962 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

## Gürcüstan Saakaşvilini Ukraynaya vermək niyyətində deyil



**Gürcüstan eks-prezident Mixail Saakaşvilini Ukrayna tərəfinə vermək istəmir.**

Ölkənin baş nazirinin müavini, mədəniyyət, idman və gənclər naziri Teya Tsulukiani bildirib ki, siyasətçi həbs müddətini Gürcüstanda çəkəcək.

"Söhbət Saakaşvilinin Gürcüstan məhkəməsi tərəfindən ona verilmiş həbs müddətini çəkməsi üçün Ukraynaya təhvil verilməsindən gedirsə, belə bir niyyətimiz yoxdur. Bunun üçün hüquqi məqsədəuyğunluq yoxdur", - deyə o, hökumət toplantısından sonra keçirilən brifinqdə qeyd edib.

## 391 nəfər COVID-19-a yoluxub, 835 nəfər sağalıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 391 yeni yoluxma faktı qeydə alınıb, 835 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 486 378 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 465 446 nəfər müalicə olunaraq sağalıb, 6 584 nəfər vəfat edib, aktiv xəstə sayı 14 348 nəfərdir.Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 962, ötən müddət ərzində isə ümumilikdə 4 892 127 test aparılıb.

## Şadlıq saraylarında süni qiymət artımının qarşısını necə almalı?



**Sərt karantin rejimi yumşaldılıb, yoluxma sayı da günü-gündən azalır. Düzdür, məhərrəmlik ayında az sayda toylar olsa da, məhərrəmlikdən sonra toyların sayı çoxalır. Bəs toyların çox olması süni qiymət artımı yaradırmı? Süni qiymət artımının qarşısını necə almaq lazımdır?**

Məsələ ilə bağlı Unikal.org-a açıqlama verən millət vəkili, iqtisadçı Vüqar Bayramov deyir ki, sərt karantinlə bağlı tədbirlər yumşaldıldıqdan sonra ictimai iaşə və xidmət sektorunda, xüsusilə də şadlıq saraylarında qiymətlərin artmasını müşahidə edirik: "Sahibkarların belə qiymət artımına getməsi arzuolunan deyil. Sahibkarlar tərəfindən süni qiymət artımı zamanı monitorinqlərin aparılması və bazar qanunları çərçivəsində tənzimlənməsi mümkündür. Bu istiqamətdə süni şəkildə artırılan qiymətlərin optimallaşdırılması çox vacibdir".

## Nobel mükafatının qalibi açıqlandı

**İsveçin paytaxtı Stokholmda 2021-ci il Nobel həftəsi start götürüb. Adalet.az-ın məlumatına görə, bu gün tibb və fiziologiya üzrə mükafatın sahibi açıqlanıb. Bu il bu mükafatı amerikalı fizioloq Devid Culius əldə edib.**

O, orqanizmdə temperatur və toxunuş reseptorlarını kəşf etdiyinə görə Nobel mükafatına layiq görülüb.

Qeyd edək ki, Nobel həftəsi çərçivəsində oktyabrın 5-də fizika, oktyabrın 6-da kimya, 7-də ədəbiyyat, oktyabrın 8-da sülh və oktyabrın 11-də iqtisadiyyat üzrə Nobel mükafatlarının laureatları açıqlanacaq. Mükafatlar bu il dekabrın 10-da sahiblərinə təqdim olunacaq.

## Rusiyanın Suriyadakı bazasına hücum



**Suriyanın Lazkiyə bölgəsində yerləşən Rusiyanın Hmeymim aviabazasına dron hücumu həyata keçirilib.**

Adalet.az xəbər verir ki, bu məlumat Teleqram sosial şəbəkəsinin Türkiyə seqmentində yayılıb.

Məlumata görə, dron hücumu hava hücumundan müdafiə sistemləri ilə zərərsizləşdirilib.

## Oxucuların nəzərinə

Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.

## Məktəb yaxınlığında siqaret satan köşklərlə bağlı monitorinq keçiriləcək

**Orta məktəblərə yaxın yerlərdə qəzet köşklərində siqaret satılması ilə bağlı monitorinq keçiriləcək.** Bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, ümumilikdə parlamentin payız sessiyası ərzində "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun icrası ilə bağlı monitorinq keçiriləcək və monitorinqin nəticələri geniş müzakirəyə çıxarılacaq. Komitə sədri vurğulayıb ki, qanuna əsasən, bütün qapalı məkanlarda siqaret çəkməyə görə cərimələr nəzərdə tutulub: "Qanun məktəblərin yaxınlığında siqaret satışını qadağan edir. Ancaq təəssüflər olsun ki, qanunun tələbləri pozulur, məktəbə yaxın yerlərdə, əsasən qəzet köşklərində siqaret satışı, o cümlədən siqaretin ədədlə satılması müşahidə edilir. Bizə bu barədə müraciətlər daxil olur. Ona görə biz istəyirik ki, bu məsələ ilə bağlı monitorinq keçirək və payız sessiyasının sonunda geniş müzakirəyə çıxaraq".

## Aeroportda Bakı sakinindən narkotik götürüldü



**Bakı şəhər sakinində narkotik aşkarlanıb. Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.**

Bildirilib ki, Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Bakı şəhər sakini R.Bayramlıdan 42 ədəd tramadol və 5 ədəd metadon həbləri aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

## GÜNÜN LƏTİFƏSİ

Bir gün gecə saat 2 olur, Mamed evə gəlmir. Arvadı zəng vurur qaynanasıgilə. Deyir:

**- Ay qaynana, saat 2-di, amma Mamed evə gəlməyib. Bəlkə başqa arvadı var, onun yanına gedib?**

**- Ay gəlin, niyə ağlına pis-pis fikirlər gətirirsən? Bəlkə bıçaqlayıblar, bəlkə maşın vurub?**

# İlham Əliyev Cəbrayıl rayonunda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı Cəbrayılda "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlini qoyub. Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Dövlətimizin başçısı 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak edib. Prezident İlham Əliyev Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib. Dövlətimizin başçısı Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub. Sonra Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.

# Prezident sərəncam imzaladı

**Prezident İlham Əliyev Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılıb.

# "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin qərb marşrutunun inkişafı müzakirə olunub

**Bakıda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutunun inkişafı üzrə İşçi qrupunun 6-cı iclası keçirilib.**

Bu barədə Adalet.az-a "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.

Məlumata görə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov iclas çərçivəsində iştirakçı ölkələrin dəmir yolu nəqliyyatı üzrə nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb. Cəmiyyət sədri "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti və bu istiqamətdə görülən işlərdən danışıb. Bildirib ki, dəhliz yalnız iştirakçı deyil, bu marşrut ilə ixrac-idxal əməliyyatlarını həyata keçirərək ticarət dövriyyəsini artıran digər ölkələrin də inkişafında əhəmiyyətli rol oynayacaq, iqtisadi-ticarət əlaqələrini genişləndirəcək.



Cavid Qurbanov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızı işğaldan azad etməsi sayəsində ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin uğurlu təşviqinə geniş imkanlar açıldığını vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsində əhəmiyyətli olan beynəlxalq marşrutların inkişaf etdirilməsində ölkəmizin təşəbbüskarlığı və fəal rolundan söhbət açıb. Bu təşəbbüskarlığın təzahürü olaraq dəhlizə beynəlxalq maraq ildən-ilə güclənir.

Tədbirdə "Rusiya Dəmir Yolları" ASC-nin baş direktor müavini Vyaçeslav Pavlovski, "Belarus Dəmir Yolları" Dövlət Birliyi rəisinin birinci müavini Pyotr Dulub, İran İslam Respublikası Dəmir Yollarının ticarət və istismar üzrə vitse-prezidenti Murteza Cəfəri, Finlandiya Dəmir Yolları konserninin ("VR Group LTD") Rusiyadakı nümayəndəliyinin rəhbəri Vladislav Şepetovski iştirak ediblər. Yığıncağa onlayn formatda Hindistanın CONCOR konteyner korporasiyasının prezidenti Kalyana Rama da qoşulub.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini İqbal Hüseynovun sədrliyi ilə keçən İşçi qrupun 6-cı iclasının iştirakçıları ötən toplantının qərarlarının icrası və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizindəki daşımaların inkişafı üzrə işlərin gedişatı ilə tanış olublar. Kağız məhsullarının konteynerlərlə Finlandiyadan Hindistana daşınması layihəsinin nəticələrinə baxılıb, mövcud trafik həcmi və Hindistandan Azərbaycan, Rusiya, Belarus və Avropa Birliyi ölkələri istiqamətlərinə konteyner yüklərin cəlb edilməsi perspektivləri, eləcə də AB ölkələrindən konteynerlərin geri yüklənməsi ilə bağlı məsələlər müzakirə olunub. Dəhliz iştirakçıları tərəfindən cəlbedici tarif şərtlərinin yaradılması, gömrük prosedurlarının sadələşdirilməsi, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutu boyunca konteyner qatarlarının təşkilində elektron məlumat mübadiləsinin tətbiqi, dəhlizin milli hissələrində infrastrukturun inkişafı, Astaradakı (İran) yükləmə terminalının yük potensialının artırılması, Astara-Rəşt və Zahedan-Çabahar dəmir yolu xətlərinin tikintisi və digər mövzular gündəlikdə yer alan əsas məsələlər olub. İclasda Finlandiya Dəmir Yolları konserni ("VR Group LTD") "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutunun inkişafı üzrə İşçi qrupuna üzv qəbul edilib. Görüş çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC nümayəndələri ilə İran, Rusiya, Belarus və Finlandiya dəmir yolları təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilib, qarşılıqlı əlaqələrə dair bir sıra məsələlər müzakirə olunub. İclasın sonunda müvafiq protokol imzalanıb.

Xatırladaq ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Razılaşma Rusiya, İran və Hindistan arasında 12 sentyabr 2000-ci ildə Sankt-Peterburq şəhərində bağlanıb və 21 may 2002-ci il tarixindən qüvvəyə minib. Azərbaycan "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında" sazişə 2005-ci ildə qoşulub.

**"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin daha da genişləndirilməsinə şərait yaradacaq.**

# Tarixi zərurət və xalqın istəyi

**Ötən əsrin 90-cı illərində Azərbaycanda yaşanan siyasi-hərbi böhran ölkəni xaos vəziyyətinə gətirib çıxarmışdı. Bir tərəfdən erməni separatçıları xarici himayədarlarının dəstəyi ilə işğal məqsədilə torpaqlarımıza təcavüz edirdi, digər tərəfdən isə ölkəmiz vətəndaş müharibəsi ərəfəsində ili. Həmin vaxtlarda hakimiyyətdə olan qüvvələr səriştəsizliyi Azərbaycanı demək olar ki, məhvə sürükləyirdi. Azərbaycanda yaşanan xaos vəziyyəti xalğı məcburiyyət qarşısında dünya siyasətində böyük təcrübəsi olan Heydər Əliyevi Bakıya dəvət etdi.**

**1993-cü il oktyabr ayında keçirilən Prezident seçkilərində xalqın iradəsilə Prezident seçilən Heydər Əliyev ölkənin yeni inkişaf mərhələsinin təməlini qoydu.**

Oktyabrın 3-nə təyin edilmiş Prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Xalq böyük səsçoxluğu ilə özseçimini etdi və Ulu Öndər Heydər ƏliyeviPrezidentseçdi. Həmin seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. Ümummilli Lider andiçmə mərasimindəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm." Tarix Ulu Öndərin verdiyi bu anda sadiq olduğunu sübut etdi.

Müstəqilliyin ilk illərində xalqımızın başına gətirilən müsibətləri bir daha yada salmaq kifayətdir. Əgər o vaxt sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan qanlı faciələri görməz, xəyanətlərin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi. Bütün bunlar ona görə baş verirdi ki, əvvəlcə Vəzirov-Mütəllibov rejimi, sonra isə Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə çalışır, bu yolun alternativi olmadığını başa düşmək istəmirdilər. Nəticədə ölkəni uçuruma apardılar. Azərbaycanı fəlakətin bir addımlığında qoyub qaçdılar.

Ulu Öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətlənmişdir. Ümummilli Lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, ölkədəki qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

1991-1993-cü illər ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq və qeyri-peşəkar idarəetmə dövrü kimi xatırlanır. Dövlətin suveren mövcudluğuna təhdid yaradan bütün amillər həmin dövrdə dövlətə səriştəsiz və qeyri-peşəkar şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən həmin dövrün iqtidarı xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri əslində öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat iqtidarının özü də xilas üçün sonda Heydər Əliyevdən imdad istədi.

Azərbaycan xalqı qanı və canı bahasına əldə etdiyi müstəqilliyin qorunması üçün bu müstəqilliyin əldə olunmasına ən çox töhfə vermiş və onu qoruya biləcək əvəzsiz lideri Heydər Əliyevi dəvət etdi. Hələ 1992-ci ilin oktyabrında Azərbaycanın "91-lər" adlanan ziyalılar qrupu Heydər Əliyevə hakimiyyətə qayıdışı üçün müraciət etmişdilər. 1993-cü il iyunun 9-da Heydər Əliyev, nəhayət, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq Gəncəyə yollandı və bölgədə davam edən qiyamın qarşısını aldı.

Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi yaşayacaqdır. Azərbaycan xalqının tarixində taleyüklü məsələlərin həllində müstəsna



xidmətləri olan tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, parlaq şəxsiyyət Heydər Əliyevin xüsusi rolu vardır. Müstəqilliyin ilk illərində xalqımız qarşıya çıxan çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Ümummilli Lider Heydər Əliyev öz xilaskarlıq missiyasının öhdəsindən yüksək səviyyədə gəlmişdir.

### *Siyasətdə Heydər Əliyev fenomeni*

Heydər Əliyev dühası. Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi.O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, peşəkar rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir.Gündəlik siyasi fəaliyyətində nümayiş etdirdiyi peşəkarlıq sayəsində Ulu Öndər "siyasət nəhəngi", "siyasət qrosmeysteri", "siyasət patriarxı" və s. bu kimi adlar qazanmışdır.Siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbrliliyindəvə bir çox digər məsələlərdə Heydər Əliyevin fenomenallığı sübut olunmuşdur;

Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu Öndəröz çıxışlarında fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. Heydər Əliyev müzakirə olunan məsələnin mahiyyətini açmağı, mövzunu milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyi ustalıqla bacarırdı. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşıya qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında və həmsöhbətinə təsir etmə gücündə idi. Ulu Öndər Heydər Əliyev irsi davamlı inkişafın təminatıdır. Azərbaycan Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqiyə nail olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxmışdır.

Tarixi, adət-ənənələri, milli fəlsəfi məfkurənivə zəngin mədəniyyətimizin bütün çalarlarını özündə ehtiva edən azərbaycançılıq ideologiyasının müəllifi Heydər Əliyev.Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissələrindənbiridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi.Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən Azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasındareal siyasi amildir.

### *Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur*

Siyasi idarəetmədə peşəkarlıq nümunəsi. Ulu Öndər Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu Öndərdeyirdi ki, reallığı düzgün qiymətləndirən, zəngin təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir. Milli maraqlar üzərində qurulmuş dövlət siyasəti.Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik nümayiş etdirmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə çevrilməsinənail olmuşdur. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır.

Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız - azərbaycançılıq formalaşdı. Siyasi islahatlar aparılmağa başladı, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edildi. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başladı və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş verdi. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. O, dünya siyasətinə təsir etmək gücündə olan və qlobal miqyasda təhlillər aparmağı bacaran siyasətçi idi.Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.

Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir - qısa müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaranmış, uğurlar əldə olunmuşdur. Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları Azərbaycana ciddi diqqət yetirməyə başlamış və ölkəmiz beynəlxalq münasibətlər sisteminin suveren aktoruna çevrilmişdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıtması nəticəsində respublika ərazisində səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirilmiş, vətəndaş müharibəsi təhlükəsinə, separatçı meyillərə son qoyulmuş və təcavüzkar Ermənistan Respublikası ilə atəşkəs əldəolunmuşdur.Heydər Əliyevin neft strategiyasının təcəssümü olan "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına çıxarılmışdır.

Məhz Ulu Öndərin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz mübarizə elan edilmişdir. Bütün hüquq mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə, mütəşəkkil cinayətkarlığa, korrupsiya və rüşvətxorluğa, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər olunmuş və "qanunun aliliyi" prinsipinin real təmin olunması üçün müvafiq tədbirlər görülmüşdür.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır.Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.Ulu Öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrildi. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir.

**Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycanmünaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil etmişdir. Məhz Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmış və məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Ulu Öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur.**

**Hazırladı:**
**Nicat Novruzoğlu**

# <u>İlham Əliyev:</u> "Mən Suqovuşandayam... Mən Qarabağdayam, bəs siz haradasınız?"

**44 günlük Zəfər Qələbəsindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq-bərpa işləri ilə tanış olmaq məqsədilə oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində olub. Səfər zamanı Prezident İlham Əliyev Suqovuşan qəsəbəsində Azərbaycan Bayrağını ucaldıb.**

Quruculuq-bərpa işləri ilə məşğul olan işçilərlə görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib:

"Bir il bundan əvvəl, oktyabrın 3-də Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir. Bu, çox əlamətdar hadisə idi, müharibənin ilk günlərində strateji qəsəbəni işğaldan azad etmək böyük uğurumuz idi, böyük qələbəmiz idi. Bu qəsəbənin işğaldan azad edilməsi zamanı şəhidlərimiz oldu, qazilərimiz oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin.

Biz keçən ayın 27-də Anım Gününü keçirərkən Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin xatirəsini bir daha böyük hörmətlə yad etdik".

Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb etdiyini deyən Prezident, bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynadığını və qəsəbənin əlimizdə olmasının bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edəcəyini bildirdi: "Düşmən yəqin ki və təbii ki, bilirdi biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə - keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi. Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarətdir ki, birinci azad edilmiş kəndlərdən sonra - birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə azad edilmişdi - 6 kənd, - oktyabrın 3-nə qədər hər hansı bir yaşayış məntəqəsi azad edilməmişdi. Bunun təbii səbəbləri var idi, hazırlıq gedirdi, manevrlər gedirdi, şiddətli döyüşlər gedirdi. Ancaq müharibənin ilk günündə əldə edilmiş qələbələrdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi, əlbəttə ki, ordumuza, xalqımıza əlavə güc, mənəvi güc verdi və müharibənin yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə böyük mənəvi üstünlük verirdi".

Bu kəndlərin strateji əhəmiyyəti olduğunu vurğulayan Prezident İlham Əliyev, burada Suqovuşan su anbarı yerləşdiyini bildirdi: "Bu su anbarı Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilmişdir. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək idi. İşğal zamanı mənfur düşmən bizə qarşı ekoloji terror da törədirdi, su terroru törədirdi. Hətta Avropa Şurası Parlament Assambleyasının sessiyalarının birində bu məsələ ilə bağlı xüsusi məruzə təqdim olunmuşdu və məruzə qəbul edilmişdi, qətnamə qəbul edilmişdi. Ermənistan dövləti ittiham edilmişdi və bu, bizim böyük uğurumuz idi. Təsadüfi deyil ki, ondan sonra bu məruzəni hazırlayanlara qarşı erməni lobbi təşkilatları mənəvi terror siyasəti aparmağa başlamışdı. İşğal dövründə ermənilər yay mövsümündə suyu kəsirdilər, qış mövsümündə isə suyu buraxırdılar. Yayda bizim kəndlilərimiz, fermerlərimiz susuz qalırdı, qışda isə suyu buraxıb daşqınlara səbəb olan təbii fəlakət törədirdilər. Yəni bu, bir daha göstərir ki, biz hansı çirkin düşmənlə üz-üzəydik. Onlar bütün imkanlardan istifadə edib bizə daha böyük ziyan vurmaqla məşğul idilər. Suqovuşan qəsəbəsinin azad edilməsi və su anbarının bizim nəzarətimizə keçməsi nəticəsində artıq Ermənistan dövlətinin bu imkanları da onların əlindən çıxdı. İndi buraya biz hakimik. Bu il Suqovuşan su anbarından istifadə edərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi. Bu günə qədər suvarılmayan, yaxud da ki, az suvarılan 30 min hektar torpağa bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi kanallarda təmir işləri gedir. Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir".

Ulu öndər Heydər Əliyev tərəfindən tikilən iki su elektrik stansiyası müharibə zamanı düşmən tərəfindən dağıdılmışdır. Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyası müharibə zamanı və müharibədən sonra onlara bu rayonlardan çıxmağa vaxt verilən zamanıdağıdılmışdı.Hazırda onların bərpasının aparıldığını vurğulayan İlham Əliyev, ilk növbədə, "Suqovuşan-1" və "Suqovuşan-2" su elektrik stansiyalarının bərpası ilə bağlı işlər görülməyə ndığlnı və artıq bu stansiyalar işlək vəziyyətə gətirildiyini bildirdi:" Onlar yenidən quruldu, yenidən tikildi. Bu, bir daha bizim gücümüzü və siyasətimizi göstərir. Biz infrastruktur layihələrinin icrası ilə bağlı çox ciddi addımlar atırıq və müharibənin başa çatmasından hələ bir il keçməyib, görün nə qədər böyük işlər görülür. Bu bölgəni elektrik enerjisi və su ilə təmin etmək üçün Suqovuşan qəsəbəsinin xüsusi əhəmiyyəti var. Bu qəsəbənin azad edilməsinin digər önəmli tərəfi, bir daha demək istəyirəm ki, mənəvi-psixoloji üstünlüyümüzün daha da möhkəmləndirilməsidir".

Şanlı Ordumuzun qəhrəman əsgərlərinu Ermənistan ordusu qorxu içində saxladı. Təsadüfi deyil ki,Ali Baş komandanın rəhbərliyi ilə orduмuznun Ermənistan ordusu minlərlə quldrunu məhv etmiş, on mindən çoxu isə fərari kimi döyüşdən qaşmışdır. "Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir. Mənasız əməliyyatlar həyata keçirir ki, bu əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti faktiki olaraq qurban kimi verilir. On min fərarisi olan ordu, əlbəttə ki, müqavimət göstərə bilməzdi. Bu fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Bu yaxınlarda mənə verilən məlumata görə, o, haradasa Azərbaycan haqqında, Ulu Öndər haqqında öz səviyyəsinə uyğun çirkin sözlər ifadə etmişdir. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metirka"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır.

Bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Serjikin oğurluğu haqqında Ermənistanda bilməyən yoxdur. Bu gün onunla əlbir olan "müharibə qəhrəmanları" artıq ya həbsdədir, ya cəhənnəmdədir. "Tuşonka" satan və artıq cəhənnəmdə yanan, Serjikin sağ əli olan "general" Ermənistan ordusunun və Serjikin əsl simasını göstərir. Müharibə zamanı "tuşonka" satan general hansı sözlərə layiqdir? Serjikin sağ əli olan, müharibə dövründə müdafiə naziri vəzifəsində çalışan hərbi cinayətkar bu yaxınlarda Ermənistanda həbs edildi, oğurluğa görə. Nasaz silahlar alırdı, pullarını da qoyurdu cibinə. Bu haqda bizdə kifayət qədər məlumatlar var, həm müharibədən əvvəl, həm müharibə zamanı hansı əməllərdən çıxırdılar. Ayaqları altında torpaq yanırdı, Azərbaycan Ordusu hər gün irəli gedirdi, Ermənistan müdafiə naziri kontraktlar imzalayıb, nasaz silahlar aldırıb, qiymət fərqini də cibinə qoyurdu. Onlar Serjikin yetirmələridir, onun kimi oğrulardır.

Mən deyəndə ki, Serjik hərbi cinayətkardır, bunu təkcə mən demirəm, bunu bölgə ilə tanış olan bütün qərəzsiz və müstəqil politoloqlar, jurnalistlər deyirlər. Britaniyalı jurnalistə verdiyi müsahibədə demişdi ki, Xocalı soyqırımını şəxsən özü törədib. Bunun da izahatını vermişdi ki, azərbaycanlılar bilməlidirlər, Ermənistan ordusu dinc əhaliyə qarşı silah qaldıra bilər. Bu qanlı cinayətkar Serjik Sarkisyandır. Xain deyirəm, bu, təhqir deyil. O, hər addımbaşı xəyanət edib. Birincisi, çörəyini yediyi Azərbaycan xalqına. İkincisi, onun rəhbəri olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin birinci katibi Gevorkova ki, onun yavəri olub, onun qovluq daşıyanı olub. Bu, onun tərcümeyi-halında da var, bəlkə də onu sildirib, amma bizim arxivlərdə var. Çünki onun vəzifələrə təyin olunması Bakıdan keçirdi. Bizim arxivlərdə hər şey var. Serjik Sarkisyan Boris Gevorkovun rəsmən köməkçisi vəzifəsini daşıyırdı, amma faktiki olaraq nökəri, kabab bişirəni və istirahət məclislərinin təşkilatçısı funksiyasını yerinə yetirirdi. Sonra nə oldu? Sonra separatist hərəkat başlayan kimi Serjik Gevorkovu satdı, xəyanət etdi. Bu, ikinci xəyanət. Üçüncü xəyanət onun rəhbəri olan Köçaryana qarşı idi. İndi Ermənistanda bunu bilməyən yoxdur. Serjiki qulağından tutub vəzifələrə gətirən Köçaryan olmuşdur. Bütün vəzifələrə onu o, təyin edib. Prezident vəzifəsinə də zorla o, təyin etdirib. Halbuki erməni xalqı Serjikə nifrət edirdi. Ondan sonra nə oldu? Heç bir il keçmədi Köçaryanı artıq kənara qoydu, heç telefonlarına da cavab vermirdi. Görün, bu, nə qədər alçaq xislətli bir ünsürdür".

Müharibədən sonra əraziləri tərk edib, tülki kimi qaçıb gedən erməni separatçılarının başçılarına üzünü tutub: "Bu gün mən buradayam, Ali Baş Komandan kimi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəyəm. Serjikin kişiliyi çatırsa, gəlsin bura. O, kişilikdən danışır. Qafqazda kişilikdən danışır. Birincisi Qafqaza bunun millətinin heç bir aidiyyəti yoxdur. Onlar gəlmədirlər, haradan gəliblər, hamı yaxşı bilir. İkincisi, kişilikdən danışırsansa, gəl kişi kimi buraya. Bax, mən burada dayanmışam. Sənin "Madagiz" adlandırdığın Suqovuşanda dayanmışam. Kişiliyin varsa, gəl buraya. Yoxsa orada - İrəvanda oturub banlamaqla özündən qəhrəman düzəldə bilməzsən. Demişəm bir dəfə, hələ sinəsində gəzdirdiyi o dəmir-dümürləri zibil yeşiyinə atsın. Onların heç bir qəpik də qiyməti yoxdur. Ona ən yaxşı cəzanı da erməni xalqı verib, 2018-ci ildə bir təpiklə onu vəzifədən qovub. 2018-ci ildə seçkilərdə növbəti saxtakarlıq törədərək özünə 50 faizdən çox səs yazdırıb. Bu cinayətin şəriki ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosudur. Çünki onlar Serjiklə əlbir olaraq, - bilmirəm, sövdələşmə nəyin əsasında olub, amma təxmin edə bilərəm, - onun qələbəsini tanıyıblar. Bu adamı Ermənistanda kütləvi surətdə lağa qoyurlar, ələ salırlar, ona nifrət edirlər. O, seçkilərdə özünə 50 faizdən çox səs yazdırır, özünü baş nazir təyin etdirir və ATƏT də buna göz yumur, buna razılıq verir. Bax, iki saxtakar - biri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, hansı ki, Azərbaycana hər zaman xor baxır, biri də Serjik. Nə oldu, sonra erməni xalqı qalxdı. Erməni xalqı qalxıb bir təpiklə onu vurub atdı çölə. Ondan sonra nə etdi? Ondan sonra məzlumcasına gəlib dedi ki, mən haqlı deyildim, Nikol haqlı idi. Özünə kişi deyən adam belə söz deyər?! Özünə kişi deyən adam bu qədər özünü alçaldar?! Bax, bunu belə heç ediblər. Ondan sonra iki il ərzində ağzına su alıb susmuşdu. Nə qədər onu təhqir etdilər. Nə qədər onun cinayətkar qohumlarını həbs etdilər. Xaricdə gizlənmiş və Kolumbiyanın, ya da Qvatemalanın pasportunu almış bir yaxın qohumu var, adını da dəyişdirmişdi. Necə ki, vaxtilə Serjik özünü "Serj" edib. Qohumu da özünə bir ad verib - "Qonzales". Qulağından tutub gətiriblər və həbs ediblər. Qorxusundan susub, nə desin? Müharibədən sonra yenə baş qaldırır. Müharibə olmasaydı, bu acı məğlubiyyət olmasaydı, Serjik də indi həbsxanada idi. Onun kimi oğru bizim bölgədə bəlkə də hələ doğulmayıb"- deyə Prezident İlham Əliyev çıxışında bildirdi..

"Bu gün Suqovuşanda və Talış kəndində olarkən bir daha xalqımızın, Silahlı Qüvvələrimizin qəhrəmanlığını görürəm. Buraya gələn hər kəs bunu görür və görəcək. Çünki bu yerləri işğaldan azad etmək, ölümə getmək, bax, xalqımızın böyüklüyünü göstərir.

Bu gün hər iki kənddə Dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xalqına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq.

**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"**

**Hazırladı:**
**Rüstəm HACIYEV**

# "Mənim Azərbaycanın gələcəyinə ümidlərim böyükdür"

(əvvəli ötən sayımızda)

**Qarabağın kənd camaatı ona sadəcə olaraq "qala" , orada yaşayanlara isə "qalalı" deyərdilər ". ("Karvan gedir (Firidun Şuşalıya açıq məktub"); Nümunə gətirdiyim aşağıdakı cümlələrdə isə məşhur Qarabağ xanəndələrimizin həzin və məlahətli səsləri duyulur: "İslamın "Segah"ı, Cabbar Qaryağdıoğlunun "Qatar"ı, Seyid Şuşinskinin səsi bu gün də bir əfsanə kimi yad edilir. Qarabağda deyərdilər ki, "Dünyaya iki oxuyan gəlib, biri Həzrəti Davud, digəri Seyiddir". (əfsanəyə görə, Davud peyğəmbərin səsinə çatan səs yoxmuş dünyada). Xanın səsində Azərbaycan xalqının, Azərbaycan təbiətinin ruhu, koloriti duyulur. Hər dəfə ona qulaq asanda, mənə elə gəlir ki, Xan da, mən də Şuşanın sərin, dumanlı dağlarından, İsa bulağından, Qırxqız yaylağından, zarafatcıl, şən təbiətə malik adamlarından dünən ayrılıb gəlmişik". ("Xanəndəlik, müğənnilik sənəti haqqında" məqaləsindən);**

Və yarımçıq, sonuncu əlyazması-"Qarabağnamə" dən səhifələr" də ixtiyar sənətkarın uşaqlıq illərində müşahidə etdiyi, yaddaşında daim yaşatdığı Qarabağ ətirli son cümlələr:

"Mən on bir - on iki yaşlarında olduğum zaman çox isti keçən bir yay fəsli atam bizim ailəmizi Yağlıvənd obasından Rzaqulu adlı bir dostunun Kirs yaylağında olan ailəsinə qonaq göndərmişdi. Kirs-ziyarət yaylağı Sarı qayalı, qalın meşəli dağlar arasında saysız-hesabsız soyuq bulaqları olan, zirvələrində on illərlə qar yatıb qalan, dünyanın ən gözəl çiçəkləri bitən Qarabağ yaylaqlarındandır. Qarabağ tərəkəmələrinin bir hissəsi mayın onunda-on beşində ora köçərdilər." və s.

İlyas Əfəndiyev yaradıcılığı üçün səciyyəvi olan əsas cəhətlərdən biri onun cazibəli, təbii və canlı bir dildə yazmasıdır. Azərbaycan dilinin zəngin söz xəzinəsinə, çoxçeşidli çalarına, bu dilin şəhdi-şəkərinə dərindən bələdliyindən və vurğunluğundandır ki, yazıçının əsərləri bədii dilinin poetikliyi ilə seçilir."Hər bir xalqın ancaq özünəməxsus milli ruhu,milli koloriti var-"deyən sənətkarın fikrincə:

"Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır. Ədəbiyyata gətirilən sözü yazıçı elə işlətməlidir ki, o, hamı üçün anlaşıqlı olsun. Xalqın ruhu ilə, canlı danışıq dili ilə mayalanmış əsərlər həmişə ümumxalq məhəbbəti qazanır. "

Fikrimizcə, ədibin bədii əsərlərindəki axıcılıq, rəvan təhkiyə, yüksək şeiriyyət və poetik deyim öncə müdrik sənətkarın milli folklora və xalq dilinə dərindən bağlılığı ilə ilgilidir.Xalq şairi Bəxtiyar Vahabzədənin də fikirləri burada yerinə düşür:"Qarabağ torpağından boy atan əziz qardaşım, Sizin, demək olar ki, bütün əsərlərinizə Qarabağın ab-havası, ruhu, özünəməxsus təbiəti, bir sözlə, bütün gözəllikləri hopub. Sizin əsərlərinizdə Daşaltı çayının şırıltısı, Xarı bülbülün əfsanəvi gözəlliyi, İsa bulağının zümzüməsi, Qarabağ bülbüllərinin cəh-cəhi yaşayır. Bunu yalnız yazıçı müşahidəsinin nəticəsi kimi izah etmək düz olmazdı. Bu, doğulduğunuz torpağa, onun can dərmanı olan ab-havasına, mənəvi dünyasına, bütün gözəlliklərinə sonsuz vurğunluğun nəticəsidir.

Sizi yazıçı edib əlinizə qələm verən də bu torpaq, bu torpağın mənəvi dünyasıdır. Sizin əqidəniz də məhz elə bu torpaqdan pöhrələnib.

Sizi durduğunuz indiki mərtəbəyə qaldıran o böyük əqidənizi və bu əqidədən od alan yanar ürəyinizə minnətdar olmalıyıq." Çoxşaxəli yaradıcılığında milli özünüdərklə ümumbəşəri dəyərlər arasında bir körpü yaradan dünya şöhrətli dramaturqun bütün zamanlarda oxunan bədii irsi bu gün də çoxmilyonlu oxucular tərəfindən sevilə - sevilə oxunur. Yarım əsrdən artıq bir dövrdə milli teatrımızı öz çiyinlərində saxlamış İlyas Əfəndiyevin dramaturgiyası çağımızda öz aktuallığını, təravətini və müasirliyini qoruyub saxlayır. İlyas Əfəndiyevin ən böyük arzusu Azərbaycanın müstəqilliyi idi. O, yaradıcılığında azadlığımızı, milli suverenliyimizi və istiqlalımızı həmişə tərənnüm edirdi.

Müdrik sənətkar sağlığında bu arzusuna çatdı. Ancaq Qarabağın erməni faşistləri tərəfindən işğalı oan böyük dərd oldu və özü ilə birlikdə Qarabağ nisgili apardı. Xalq yazıçısı Elçin yazır:

"İlyas Əfəndiyevin həyatında ağrılı - acılı hadislər az olmayıb, fərəhli, sevincli, hadisələr də. Onun həyatındakı ən sevincli, fərəhli hadisələrdən biri, birincisi - Azərbaycanın müstəqilliyi idi və mən çox şükürlər edirəm ki, tale bu müstəqilliyi görməyi ona qismət etdi.

Onun həyatındakı ən ağrılı-acılı hadisələrdən biri isə-Qarabağın istilası və dağıdılması oldu və mənim üçün gün işığı kimi aydın bir həqiqətdir ki, Qarabağ sarsıntısı olmasaydı, İlyas Əfəndiyev daha artıq yaşayardı." "Mənim də ana vətənim bu gün düşmən əlindədir"-deyən sənətkar doğulduğu Füzuli rayonunun işğalı barədə ürək ağrısı ilə yazırdı: "Füzuli şəhəri, Füzuli rayonu bir tərəfdən sovet imperiyasının zülmünə,repressiyasına məruz qaldı,digər tə-



rəfdən də erməni işğalçılarının. Deməli, Füzuli şəhəri iki dəfə qarət edildi. Bunun necə böyük dərd olduğunu demək çətindir."

Şairlərimiz də sənətkarın torpaq həsrətinə və nisgilinə öz şeirlərilə dərd ortağı oldular:

*Qara bəxtilə Qarabağ*
*Sinəsinə çəkmişdi dağ.*
*Dağ boyda əzaba döndü*
*Ürəyində doğma torpaq.*

**(Fikrət Sadıq)**

*Qarabağ yanğısı,*
*Yurd harayı*
*Bağrını dağlayan damğa, hay oldu.*
*Cismin də kiçilib, çökmüşdü sanki.*

*Şpartı bozqırı, Haramı düzü,*
*Ərgünəş, Ziyarat, Kirs dağlarının*
*Əzəmətli övladı, cəngavər oğlu*
*Od qarsmış, sazaq vurmuş*
*Sünbül tək kiçilib, bükülmüşdü sanki*

**(Çingiz Əlioğlu)**

*Şəfəqin, nurundur-uca dağa bax,*
*Qəlbinin ağrısı doğma Qarabağ.*
*Köksündə açılan yaralara bax,*
*Sağalan deyildi, İlyas müəllim.*

**(Ramiz Heydər)**

*Nurlu olsun deyə vətənin yazı,*
*Canını bu yolda sən fəda etdin.*
*Bizə ibrət qoyub "Hökmdar və qızı",*
*Qəlbində Qarabağ yarası getdin...*

**(Əjdər Qiyaslı)**

Sevimli xalq yazıçımız İlyas Əfəndiyevin dünyasını dəyişdiyi gündən iyirmi beş il keçmiş olur.

Lakin ötən bu müddət ərzində milyonlarla oxucu və tamaşaçılar mənən onun yoxluğunu hiss etməmişlər. Akademik Milli Dram Teatrı hər il teatr mövsümünü dramaturqun "Hökmdar və Qızı" pyesinin tamaşası ilə açmışdır.

Qəlbində Qarabağ nisgili, Qarabağ düyünü ilə dünyadan köç edən bənzərsiz sənətkarımızın bu anım günündə nigaran ruhu şaddır. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanımız, Prezident İlham Əliyevin dəmir iradəsi, dəmir yumruğu, müzəffər ordumuzun şücaəti, igid və yenilməz şəhidlərimizin və qazilərimizin fədakarlığı sayəsində həm Şuşa, həm də Qarabağın digər bölgələri - Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər, erməni işğalçılarından azad edildi. Mərhum sənətkarımızın əsərlərində ilhamla vəsf etdiyi, ürəkdən sevdiyi Qarabağın cənnət guşəsi, mədəniyyətimizin paytaxtı Şuşa azaddır. Qarabağ Azərbaycandır! Ümid edirik ki, işğaldan azad olunmuş rayon və kəndlərimizdə, eləcə də Füzuli şəhərində bərpa - quruculuq işləri başa çatacaq, Qarabağımız cənnətə çevriləcək.

Mərhum sənətkarımızın erməni vandalları tərəfindən Füzulidə yerlə - yeksan edilmiş, boya - başa çatdığı, viran edilmiş ata yurdunda ev - muzeyi yaradılacaq, dərs dediyi orta məktəbə və Füzuli Dövlət Dram Teatrna adı veriləcək.

**Unudulmaz sənətkarımız sağlığında çox mükafatlar aldı. Ancaq onun ən böyük mükafatı canından artıq sevdiyi doğma xalqının sevgisi oldu. "Xalq onun qəlbinin, iztirablarının, böyük arzularının tərcümanl olan sənətkarı sevir və heç bir zaman unutmur," ustad sənətkardan gətirdiyim bu fikir onun özünün müdrik şəxsiyyətini və həmişəyaşar bədii irsini də səciyyələndirir. Bənzərsiz yazıçı taleyi yaşamış ölməz sənətkar bu gün cismən aramızda olmasa da onun bədii əsərləri oxucularının və tamaşaçılarının qəlbində yaşayır. İlyas Əfəndiyev şəxsiyyəti və həmişəyaşar əsərləri bütün zamanlarda həmişə bizimlədir. "Biz xalqımızın tarixinə hələ çox borcluyuq" - deyən müdrik sənətkar Azərbaycanın gələcəyinə böyük ümidlər bəsləyirdi: "Mənim Azərbaycanın gələcəyinə ümidlərim böyükdür. Azərbaycan xalqının vətəninə, torpağına bağlılığı, sevgisi əbədidir."**

**Vəfa Xanoğlan**
**Sənətşünaslıq elmlər doktoru**

## Vətən müharibəsi ilə bağlı yeni kitab




**"Poeziyamızın Qarabağ savaşı-Vətən müharibəsi" adlı kitab nəşr olunub.**

Kitab-monoqrafiyanın müəllifi Filologiya üzrə fəlsəfə doktoru Mərziyyə Nəcəfovadır. Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının qərarı ilə çap olunması tövsiyyə olunub. Kitabın ön sözünün müəllifi akademik İsa Həbibbəyli, elmi redaktoru AMEA-nın müxbir üzvüTehran Əlişanoğludu. Kitabda Qarabağ müharibəsi ilə bağlı yardıcılıq nümunəliri, eyni zamanda Vətən Müharibəsi iştirakçısı şairlərin poeziyası təhlil edilib.

**Emin**

## *Bakıdan Sumqayıta gedən avtobuslar*



**Metronun "20 yanvar" stansiyasının yaxınlığından Sumqayıta hər gün yüzlərlə mikroavtobus yola düşür. Bu mikroavtobusların eləsi var ki, orada oturacaqlar standartlara uyğundu. Amma elələri də var ki, həmin mikroavtobuslarda əlavə oturacaqlar quraşdırılıb. Əlavə oturacaqların quraşdırılması isə sərnişinlərin həyatı üçün çox böyük təhlükə yaradır.**

Çünki bu cür nəqliyyat vasitələrinin qəzaya uğraması zamanı çoxlu sayda sərnişinlər də dünyasını dəyişirlər. Ona görə də əlavə oturacaq quraşdırılmış Bakı-Sumqayıt marşrutu üzrə hərəkət edən mikroavtobuslara qarşı mübarizə daha da gücləndirilməlidir. Əks təqdirdə, bu cür sürücülər əlavə oturacaqlar quraşdırmaqla sərnişinlərin taleyi ilə oynayırlar.

**Emil FAİQOĞLU**

## *Rusiya dəhşətli silahını sualtı qayıqda sınaqdan keçirdi*



**Rusiya Hərbi Dəniz Donanması ilk dəfə olaraq sualtı qayıq vasitəsilə "Çirkon" hipersonik raketinin sınağını keçirib. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.**

"Rusiya Hərbi Dəniz Donanması ilk dəfə olaraq "Severodvinsk" sualtı qayığında "Çirkon" hipersonik raketinin sınağını keçirib. Atəş Barents dənizi akvatoriyasında baş tutub", - məlumatda qeyd olunub. Sınağın uğurla keçdiyi bildirilib.

**MEHRİBAN**

## *Rusiya SM-ın ermənilərə açılmış "səxavət əli"*

**Rusiya sülhməramlı Xocavənd rayonunun erməni sakinlərinin çoxuşaqlı ailələrinə yardım göstəriblər.**

Adalet.az Sputnik Armenia saytına istinadən xəbər verir ki, bu barədə



Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Məlumata görə, sülhməramlı kontingentin tibb mütəxəssisləri tərəfindən əhaliyə tibbi yardım olunub.

Xocavənd şəhərindən 17 kilometr, Xankəndidən 78 kilimetr, Bakıdan isə 380 kilometr aralıda yerləşən Çartar



kənd mədəniyyət evinə uşaqlar üçün məktəb ləvazimatları və qış ayaqqabıları verilib.

Qeyd edək ki, ötən ay Xocavənd rayonunun Cütçü kəndində yerləşdirilən ermənilərə mətbəx və qida dəstləri paylanıb.

Rusiya SM eyni zamanda humanitar-tibbi aksiya çərçivəsində "ucqar yaşayış məntəqəsi"nin sakinlərinə yardım göstəriblər. Onlar ümumi çəkisi 4 tondan çox olan ərzaq və mətbəx avadanlıqlarını Çapar kəndinin əhalisinə veriblər.

**"Ümumilikdə, xeyriyyəçi təşkilatları və fondlar vasitəsi ilə Rusiya sülhməramlıları, səhiyyə müəssisələri üçün qida və ehtiyac məhsulları, ixtisaslaşdırılmış tibbi avadanlıqlar və ilkin diaqnostika dəstləri ilə yanaşı, Qarabağdakı ermənilərə 220 tondan çox humanitar yardım verilib", - Rusiya Humanitar Yardım Mərkəzinin zabiti Ruslan İvanov deyib.**

**Əntiqə Rəşid**

## *"Avropa tənəzzül edir, gələcək Asiyanındır"*




**Yaxın keçmişdəki əhəmiyyətinə baxmayaraq, Avropa tənəzzülə yaxınlaşır.**

Bunu amerikalı siyasətçi Patrik Byükenen "American Conservative" nəşri üçün yazdığı məqaləsində qeyd edib.

"Bu gün gələcək Asiyaya aiddir, çünki burada ən çox əhalisi olan ölkələr, nüvə gücləri, habelə ABŞ-dan sonra ən böyük dünya iqtisadiyyatı - Çin və Yaponiya yerləşir", - Byükenen bildirib.

**Müəllif qeyd edib ki, məhz bu faktorlar Vaşinqtonun istiqamətini Asiya-Sakit okean regionuna dəyişməsinə təsir etdi.**

**MEHRİBAN**

## Qulu Məhərrəmli: "İran Qarabağ qələbəmizi həzm edə bilmir"



**Professor Qulu Məhərrəmli son günlər yaşananlara münasibət bildirib. Onun fikrincə İran Azərbaycanın Qarabağ qələbəsini həzm edə bilmir.**

Son günlərdə Azərbaycana münasibətdə İRAN özünü çox impulsiv və hətta bir qədər həyasız aparır. Niyə? O səbəbdən ki:

-Azərbaycanın Qarabağ savaşındakı uğurunu həzm edə bilmir;

-Açıq dəstək verdiyi Yerevanın uduzmağından məyusdur;

-Müsəlman dövlətləri kimi Türkiyə və Pakistanın bölgədə artan nüfuzundan narahatdır;

-Rusiyanın "Zəngəzur dəhlizi"nin açılmasına tərəfdar olmasından qorxur;

-Özünün riyakar "islam həmrəyliyi" siyasətinin ifşa olunmasından, Azərbaycandakı "5-ci kolon"unun seyrəlməsindən pəjmürdədir;

-Ərdoğan-Putin görüşündən (Soçi, 29 sentyabr) və ümumən Rusiya-Türkiyə işbirliyindən ehtiyatlanır;

-Türkiyə və Ermənistan arasında yaxınlaşmanı özü üçün fəlakət sayır və s.

***P.S. İranın hərbi təlimlərinə cavab olaraq Türkiyə sərhədə xeyli qoşun, hərbi texnika, o cümlədən pilotsuz uçuş aparatları (PUA, "Bayraktar" və s.) yığıb.***

***Tehranda və Təbrizdə isə İranın Ermənistana dəstəyinə qarşı kütləvi etirazlar başlayıb…***

**Emin Piri**

## Qəzənfər Həmidoğlu: Gürcü melodramı...

**"Saakaşvili nə qədər paradoksal, ekssentrik, uşaqcasına hiperaktiv fiqur olsa da, adekvat, adətən doğru zamanda doğru yerdə olmağı baçaran siyasətçidir. Düzdür, 2008-ci ilin avqustunda "rus tələsi"nə düşməsi az qala gürcü faciəsinə çevriləcəkdi. Lakin bu fiasko Batono Mişanın siyasi karyerasını bitirmədi".**

Bu sözləri tanınmış jurnalist Qəzənfər Həmidoğlu Gürcüstana qayıdarkən keçmiş prezident Mixail Saakaşvilinin həbs olunmasına münasibət bildirərkən deyib:

"Saakaşvili 18 ildir beynəlxalq diqqəti özünə cəlb etməyi bacarır. Bu sadəcə kritik situasiyalarda cəsarətli addımları ilə deyil, həm də publik oyunçuluq bacarığı ilə bağlıdır. Öz dramının həm ssenaristi, həm rejissoru, həm də aktyoru olan Saakaşvili bəzən rejissor Georgi Daneliyanın "Qüssələnmə" kinokomediyasının qəhrəmanını - Vaxtanq Kikabidzenin gənc həkim Benjamen obrazını xatırladır. Düzdür, fərqli tiplərdir, amma sonucda dramatik gedişatı öz maraqlarına uyğunlaşdıra bilirlər. 2003-cü ilin "Qızılgül inqilabı" zamanı Saakaşvili etirazçı kütlə ilə parlamentə girəndə Edurad Şevardnadze hakimiyyəti itirəcəyini heç ağlının ucundan keçirmirdi. Və yaxud 2017-ci ilin sentyabrında



Saakaşvili öz tərəfdarları ilə Polşadan Ukraynaya keçəndə onu Ukrayna vətəndaşlığından çıxaran Petro Poroşenko ilyarım sonra prezident kürsüsünə vəda etdi". Saakaşvili artıq "mahir" sərhədpozan kimi qiymətləndirən jurnlist qeyd edib ki, indi isə gürcü hakimiyyəti baş sındırır ki, eks-prezident Gürcüstana necə soxulub və ya hardan "düşüb"...

"Rustavi türməsində tibbi yoxlamadan keçərkən polisə təbəssüm "hədiyyə" etməsi eksprezidentin həbsini əvvəldən ssenarisinə daxil etməsindən xəbər verir. Gürcüstanın keçmiş birinci ledisi - hollandiyalı Sandra Rulofsdan ayrılan 53 yaşlı Saakaşvilinin Ukrayna Ali Radasının 31 yaşlı deputatı Liza Yasko ilə tezəlikcə evlənməsi isə təbii ki, könül işidir. Amma ssenarini daha effektili və dramatik edir. Üstəlik, "Gürcü arzusu" üçün sürpriz oldu. İvanişvilinin "uşaqları" sadəcə Gürcüstanın GUAM-dakı müttəfiqinin - Ukraynanın prezidenti Zelenskinin baş islahatçısını deyil (Saakaşvili Ukrayna prezidenti yanında İslahatlar komitəsinin sədridir), həm də Kiyevdəki hakim "Xalqın qulluqçusu" partiyasından olan deputatın ərini də tutublar.

Saakaşvilinin qayıdışı bu gün keçiriləcək bələdiyyə seçkilərində eks-prezidentin Vahid Milli Hərəkat (VMH) Partiyasının sıralarını və mövqelərini gücləndirməklə hakim "Gürcü arsusu"nun planlarına zərbə vura bilər. Düzdür, Saakaşvilini sevməyənlər də az deyil, onun opponentlərinin sıralarını sıxlaşdırması da gözlənilir. Bütünlükdə, Gürcüstanda parlament seçkisi ilə başlayan böhranın yaxın perspektivdə dərinləşəcəyi ehtimalı yüksəkdir. Bu ilin aprelində AB prezidenti Şarl Mişelin vasitəçiliyi ilə hakimiyyət və müxalifət böhrandan çıxış anlaşması imzalamışdılar. "Şarl Mişel planı"na əsasən, "Gürcü arzusu" yerli seçkilərdə 43%-dən az səs yığsa, 2022-ci ildə ölkə erkən parlament seçkisinə gedəcək. VMH bu anlaşmaya sentyabrda imza atıb, həmin vaxta qədər - artıq iyulda "Gürzü arzusu" anlaşmanı tərk etmişdi. Bu fonda "Gürcü arzusu"nun "Mişel planı"na əməl edəcəyinə şübhələr var. Əgər bələdiyyə seçkilərində az səs yığan iqtidar partiyası erkən parlament seçkisinə razılıq verməsə, bu, həm daxildə, həm də Qərb dairələrində anlayışla qarşılanmayacaq, "Gürcü arzusu" ciddi siyasi zədə alacaq. Üstəlik, Saakaşvili faktoru hakim qüvvə üçün əlavə ciddi başağrısına çevrilməkdədir.

**Hazırda Rusiya meylli gürcü kilsəsinin müqaviməti və müxalifətdaxili ziddiyyətlər fonunda Saakaşvilinin növbəti "həppi ənd"ə yetişməsi elə də asan görünmür və uzun sürə bilər", deyə Q.Həmidoğlu bildirib.**

**İLTİFAT**

## Döyüş xətti, "səngər" düşüncələri, insanlar...



*Əntiqə Rəşid*

**II hissə**

**Bu gündən başlayaraq, Vətən Müharibəsində gördüyüm ən xırda depalları belə unutmadan xatirələrimi yazacağam... Uzaq zaman deyil... Şahidlərimin hamısı sağdı. Onların şahidliyi ilə 10 noyabra qədər silsilə yazımı oxuyarsınız! Yazılarımda başlıqlar dəyişsə də silsilənin adı "Sevgilim Vətən!" olacaq. 27 sentyabrdan 10 noyabra qədər...**

Ötən il bu vaxtı günəşli gün idi.... Qətiyyən müharibə havası hiss edilmirdi. Bakı Beynəlxalq Avtovağzalında qarışıqlıq idi. Rayonlara gedən, rayonlardan gələn...Amma hamının üzü qayğılıydi, eyni zamanda , bəlkə də mənə elə gəlir bir az da şən idilər, ümidli görünürdülər

Mikroavtobusla yola düşəndə məlum oldu ki, sərnişinlərdən 4 nəfəri müxtəlif rayonlardan olan gənclərdi və doğma rayonlarının hərbi komissarlığına gedirlər. Sanki neçə illərin tanışı kimi hamısı ilə bir anda doğmalaşdıq və söhbətə başladıq . Həmsöhbətim Tərtər rayonunun Qaradağlı kəndindən İlkin Məmişov, Yevlax rayonunun Hacımahmudlu kəndindən Novruz Fərruxov, Ağdam rayonu Qalayçılar kəndindən olan Elmir İmanov, Ağdaş rayonunun Ləki kəndindən olan Elvin Musayev könüllü orduya getmək üçün hərbi komissarlığa əslində istəklərini deməyə, tələb etməyə gedirdilər. Hələ qarayanız, yaşda ən balaca olan Elmir "dəli " olmuşdu ki, qonşu oğlana çağırış gəlib, buna yox..

Jurnalist olduğumu bildikdən sonra ürəklərində nə arzuları vardı, danışmağa başladılar.

***Sanki bu yoldan geri dönməyəcəklər kimi danışdılar... "Həyat gözlənilməz hadisələrlə doludur! Ordan dönməyə də bilərik! Canımız bu xalqa , bu torpağa qurban, amma bizi unutmayın! " Bunu da Elvin deyir. Qəribə uşaqlardılar, Həm müharibəyə getmək arzusu ilə yanıb -alışırdılar, həm də bilirlər ki, ora elə yerdi ki, sağ qayıtmaya da bilərlər. Amma elə sevincəkdilər, elə qızğın istəklə müharibə istəyirdilər... Bu uşaqların heç biri Qarabağı, Şuşanı, Laçını, Kəlbəcəri, Füzulini görməyiblər, hardan yaranıb o yerlərə bu qədər sevgi, anlamadım.. Amma fəxr etməyə dəyən uşaqlar idilər.***

Yolumuzun yarısında çay içmək üçün maşından endik, fürsətdən istifadə edib xatirə şəkli də çəkdirdik. Yenidən yolumuza düzəldik! Avtobusun radiosundan xoşbəxtedici sözlər süzülməyə başladı:"Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri cəbhəaviiasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər".

Şəmistan Əlizamanlının "Əsgər. Vətən əmanəti, yurd əmanəti", "Marş irəli" mahnısının sədaları salonu başına aldı. 4 könüllü çağırışçı, sabah əsgər olacaq İlkin, Novruz, Elmir, Elvin və mən Şəmistan Əlizamanlıya qoşulduq! Avtobusdakı yaşlı qadın, gənc qız və o biri sərnişinlər kövrək gözlərlə bizə baxıb gülümsəyirdilər...

***Uşaqlar - hər kəs öz rayonunda düşdü... Elmir də İmamqulubəylidə düşüb gedəndə, "Bax məndən yazarsan ha..." dedi və gülümsədi. Bildim ki, "şəhid olandan sonra " sözünü qəsdən demədi ki, mənə pis təsir edər. " Ən azı 20 erməni öldürüb gəlməsən, səndən yazmayacam" dedim. İkimizdə güldük. (Müharibədən sonra araşdırdım, yol yoldaşlarımın heç birinin adı şəhidlərimizin siyahısında yox idi.. )***

Quzanlının "4 yol"unda düşəndə artıq hava qaralmışdı... Arabir uzaqlardan zəif-zəif atəş səsləri gəlirdi. Yolda sıxlıq vardı.Azərbaycan Ordusuna məxsus hərbi texnikaları daşıyan iri yük maşınları da, zirehli tankların səsi də görünüşü də adamı vahiməyə salırdı.Tanklar yanımdan keçəndə hiss elədim ki, ayağımın altında yer silkələnirdi. Ay Allah bizim nələrimiz varmış....

Minik maşınları isə Yevlaxa tərəf sütüyürdü. İçi dolu, qadınlar, uşaqlar, qocalar. Yol çantamı çiynimə atıb Quzanlı köçkün qəsəbəsində yerləşən evimizə tərəf addımlayıram. Bu anda həm çiynimdəki qadınların qətiyyən götürmədiyi çanta, qısqıvraq geyimim və alatoranda Bakı avtobusundan düşməyim polisləriimizi hərəkətə keçirdi. Ən azı 6 polis yaxınlaşdı. Sakitcə şəxsiyyət vəsiqəmi çıxartdım, kənd sakini olduğumu dedim... aralandılar.

***Kəsə yolla irəliləyirdim. Evlərin çoxunun işığı yanmırdı. Darvazalarının ağzından keçəndə Xatın xala məni gördü... Elə ucadan "Uyyy, bala nəzirsən " i elə həyəcanla dedi ki, elə bildim, döngəmizə dönsəm , məni erməni tankları qarşılayacaq. Xatın xala anamın qohumudu.. "nəvar, nə yox" eliyirik. İki gündü baş verən "ictimai, siyasi hadisələr"dən məni hali edən qonşumuz məsləhətindən də qalmadı: Gərək gəlmiyəydin, burda qadın qız qalmayaıb.. Hamını uzaqlaşdırıblar..."***

"Özün niyə getməmisən " sualıma "mən neyniyim e, oğlum dövlət işçisidi, rayondan aralana bilməz, day məndə ona görə getmədim... Bax haaa, səhər saat 5-dən sonra yatma, oyaq ol... Onsuzda o tappa-tupdan sonra heç sən də burda qalmıyassan... Burda qalmaq gözgörəticə ölümdü. Sabah çıx get anayın yanına, bala.. anan yazıqdı". Sağollaşıb uzaqlaşıram. Arxadan çağırır: "Qorxub eləsən, gəl bizə".

Həyətimizə girəcəkdə təxminən 1, 60 dərinliyində İcra hakimiyyəti tərəfindən qazılmış bir " müdafiə səngər"i gördüm. Yadıma düşmüşkən qeyd edim, müharibə ilk günlərində bölgəyə gəlmiş və müharibə qanunlarına zidd olan fotolar çəkən bir blogger-jurnalist var. 2 gün idi gəlmişdi müharibə zonasına . Azərbaycan Ordusuna məxsus texnikanı səhifəsində paylaşdığına görə onu həmin an ordan Bakıya "deportasiya" etdilər. Geri dönməmək şərti ilə. Müharibədən sonra mən Bakıya dönədə hamıya danışırmışd ki, Əntiqə getdi Quzanlıda yerləşən evlərinin zirzəmisində gizləndi gəldi. İndi ona da burdan cavab verim:Bilənlər bilir ki, köçkün evlərinin zirzəmisi yoxdu, ev birbaşa düppədüz torpağın üzərində tikilir, sement-betondan da döşəmə həmin düppədüz torpağın üstünə qoyulur. O səbəbdən də hər qapıda buldozerlə 2 çaloşluq torpaq qazıb, adını da ""müdafiə səngəri" qoyublar. Bu səngər fason şeyi burda ona görə inşa ediblər ki, kəndi tərk edə bilməyənlər müvəqqəti burda gizlənsin. Üzr istəyirəm hamıdan, bu da səngərdən çox tualet quyusuna bənzəyir. Fövqəladə hal zamanı ora özünü atdınsa, gərək ordan haray salasan ki, ay haray məni burdan çıxarın. Yəni quyudan çıxmaq üçün nə əl yeri var, nə ayaq.. Üstəgəl, əgər bu daldalanacaq bir yer olacaqdısa, bəs bunun üstünü örtəcək beton panel hanı? Şükür elədim ki, anamı 25 sentyabrdan Bakıya çağırmışam, yoxsa qadın o atəş altında qəlpədən -filandan yox, məhz çaşqınlıqdan, ya da quyunun içərindən çıxa bilməyib elə o stresdən ölərdi. Bu da Əntiqənin daldalanacağı...

Səhər yediyimin üstündə idim.Qazanları qabları yoxladım , yeməyə heç nə yox idi. Yorgunluq üstün gəldi...Bəlkədə çox yatacaqdım, Rəşadətli Ordumuzun düşməni hədəf alan mərmilərinin səsinə oyandım. "Bizimkilərdi" deyib, keçişdirmək istəyirdim ki, qəflətən qəsəbənin lap yaxınlığına top mətmisi düşdü. Ev onsuzda 20 yerdən çatı vardı, indi sanki yerində oynaqladı...Evdə hər şəy bir-birinə dəydi.Tavandakı "nastilin" arasına vurulmuş suvağın bir parçası palazın üstünə düşəndən sonra anladım ki, məsələ ciddidir, "üstüaçıq səngər"ə girməyin zamanıdır... Saata baxdım 5:45 ..Yenicə səngərə girmişdim ki, növbəti partlaış baş verdi. Bu bayaq ki, kimi deyildi. Daha qorxunc, daha səsli idi. Çöl tərəfdən darvazanın ağzından minik maşınları asfalta tərəf şütüyürdü. "Dalda yer tapmaqdansa maşına minib özlərini lap hədəfə çevirirlər" - deyib əsəbləşdim... Atəş səsləri bərkiyirdi...



Eminquey

# Mağara allerqoriyası və ermənilər

*1915-ci ildə Lev Tolstoyun qızı Aleksandra Tolstaya Rusiya imperiyasının təmsilçisi qismində Qırmızı Xaç Cəmiyyətinin xətti ilə Türkiyənin Van şəhərinə göndərilir və orada erməni yaraqlılarının türklərə qarşı törətdikləri vəhşiliklərin canlı şahidi olur, gördüklərini gündəliyində qeyd edir.*

*"...Yerlə yeksan olmuş Van şəhəri… Bizim gəlişimizə qədər bu şəhərdə ermənilərlə türklər arasında dəhşətli döyüşlər baş vermişdi.*

*Türklər ermənilər tərəfindən zəbt edilən dağüstü qalanı mühasirəyə almışdılar. Ermənilər qalanın müdafiəsi üçün vəhşi kimi vuruşurdular. Qadınlar gecələri gündüzlərə qataraq mərmilər düzəldir, türklərə atırdılar. Onlar bu vəziyyətə çox tab gətirə bilməzdilər, ərzaqları bitmişdi, silah-sursat, barıt ehtiyatı tükənmək üzrəydi. Əgər bizim kazaklar vaxtında onların köməyinə yetişməsəydi, şübhəsiz, ermənilər təslim olacaqdı. Hər iki tərəfdən xeyli sayda insan tələfatı ilə nəticələnən qanlı döyüşlər oldu. Ölənlərin meyitlərini gölə atırdılar...*

*Türk əsgərləri şəhəri tərk edəndə, təxminən 1000 nəfər Vandan çıxa bilmədikləri səbəbdən əsir götürüldü..."*

***

*"...Ermənilər şəhərin türklər yaşayan ərazisinə od vurdular, gil tikililər çətin alışdığından onları ayrı-ayrı yandırdılar..."*

*"...Məni burada görəcəyim işlərlə bağlı təlimatlandırmışdılar...*

*İki böyük məktəb binası. Tamamilə bomboş qalmış iri otaqlarda nə çarpayı, nə stul var. Döşəmədə üstləri əsgi-üsgüylə örtülmüş çirkli, cansız bədənlər. Türklərdir… kişilər, qadınlar, qocalar, cavanlar, uşaqlar...*

*Körpələrin iniltisi, hönkürtü səsləri, sayıqlamalar… Bəzilərinin sifətində şübhəli ləkələr var.*

*Bu nədir? Cüzam?..*

*Çirkli, çəlimsiz əllər bizə tərəf uzanır… Qadınlar ağlaya-ağlaya: "Xanım, xanım!" - deyə yalvara-yalvara bizdən imdad diləyirlər...*

*Gözüm, bir küncə qısılmış, qolları, sanki ölmüş kimi qəribə şəkildə yanlarına düşən bir qadına sataşdı. Onun lap astadan gələn iniltisi güclə eşidilirdi...*

*Mənim sual dolu baxışlarıma cavabında mister Yarrou vəziyyəti izah etdi:*

*- Onun qollarını dartıb kökündən çıxarıblar.*

*- Bunu kim edib? Nə səbəbə?*

*- Ermənilərlə qarşıdurmalar zamanı...*

*- Ermənilər edib? Niyə axı onlar sadə bir qadına belə işgəncə veriblər? - heyrətlə soruşdum. - Amma qəzetlərdə oxumuşdum ki, burada vəhşiliklər törədən, erməniləri kəsib-doğrayan türklərdir. Heç nə anlaya bilmirəm...*

*- Qırğın hər iki tərəfdən olub. Təbii ki, hərbi qarşıdurmada başqa cür ola da bilməz. Türklərlə ermənilər arasında düşmənçilik əsrlər boyu davam edir. Amma burada - Vanda biz ermənilərin, insanlıq adına ləkə olan vəhşiliklərinin şahidi olduq. Ermənilər qadınların döşlərini kəsir, qollarını, əllərini dartıb çıxarır, ayaqlarını sındırırlar... Bu qeyri-insani vəhşilikləri, günahsız qurbanları mən öz gözlərimlə görmüşəm..."*

*Mağara alleqoriyası, Sokratın Yunan filosofu Platonun "Dövlət" adlı kitabının yeddinci cildində irəli sürdüyü qədim fəlsəfənin ən vacib alleqoriyalarindan biridir.*

*Alleqoriyaya görə, bəzi insanlar qaranlıq bir mağaraya zəncirlənir və bu insanlar başlarını sağa və ya sola çevirə bilmirlər, əksini yalnız görə bilərlər. Doğuşdan bəri bu mağarada olan insanlar mağaranın girişindən əks olunan əşyaların kölgələrini görür və onları öz reallıqları kimi qəbul edirlər. Nəhayət bir gün bu insanlardan biri zəncirlərindən qurtulub mağaranı tərk edir. Mağaradan çıxarkən bu insan mağaranın xaricində yeni bir həqiqətlə qarşılaşır və kölgələrini divarda gördüyü cisimlərin gerçək olmadığını başa düşür. Bunu mağaradakı dostları ilə bölüşmək üçün mağaraya qayıdır. Mağaradakı dostları mağaranın xaricində fərqli bir həqiqətin olduğuna inanmırlar. Mağaranın xaricindəki həqiqəti bu insanlara aşılamaq mümkün deyil.*

*Platonun düşüncəsi bu alleqoriya üzərində formalaşır. Onun fikrincə, cisim və fikirlərdən ibarət iki ayrı dünya vardır. İnsan cismani cisimlər aləminə aiddir və mövcuddur. Ancaq bir zamanlar mövcud olduğu fikir dünyasının izlərini mənəvi olaraq daşıyır.*

*Alleqoriyada mağara cəmiyyətinin, o sosial quruluşdakı zəncir qaydalarının və mağara divarına yansıyan kölgələrin cəmiyyətdə qəbul edilmiş həqiqətləri simvollaşdırdığı iddia edilə bilər. Buna görə, zəncirini qıran şəxs, həqiqətin dalınca düşən bir filosofu, soruşan bir insanı da təmsil edir.*

*İndi bu paşinyanlar, sarkisyanlar, köçəryanlar eynən bu mağara allerqoriyası ilə yaşayan tiplərdirlər. Bu adamlar öz monoetnik mağara xülyalarından kənara çıxanda belə başqa həqiqətləri görməkdən, qəbullanmaqdan qorxurlar. Erməni hara, mağaradan çıxıb həqiqəti dərk edib filosof olmaq hara?!*

*Bu zəncirlənmənin bariz nümunəsini postlara zəncirlə bağlanmış erməni əsgərlərinin cəsədlərində gördük. Bu mağara adamları ilə hansı danışıq masasında orta nöqtəyə gəlmək olar? Dinc insanlara atəş açan qəbilə təfəkkürlü ermənilərlə hansı "insani atəşkəs"dən nəticə gözləmək olar?*

*Tezliklə bu mağara təfəkkürlü insanlar torpaqlarımızdan təmizlənəcək. Az qalıb. Kəlbəcərin İstisuyunu Cermuki adında dünyaya sırıyan ermənilərdən torpağımızı da, havamızı da, suyumuzu da geri qaytaracağıq.*

## Hülya Avşara bənzərliyi ilə tanınan Neslihan Acar görənləri çaşdırdı








**Türk kinosunun ən sevimli və bəyənilən aktrisalarından olan Neslihan Acar bu il 52 yaşını qeyd etdi.**

Adalet.az xəbər verir ki, 1969-cu ildə İstanbulda anadan olan, 4 yaşından kameralar qarşısında olduğuna baxmayaraq tanınmış müğənni və aktrisa Hülya Avşara bənzərliyi ilə yaddaşlarda qalıb. 1994-cü ildə ünlü aktyor Kadir İnanırın qardaşı oğlu Ləvənt İnanırla 1 il evli olan Neslihan Acarın bu evlilikdən bir qız övladı var. 50-dən çox film və serialda çəkilən gözəl aktrisa görənləri yenə də heyran etməyi bacarmışdı.

**Əntiqə**

*"Dünyada hər şeyə dəyər biçmək mümkündür, lakin müəllimin əsərinə heç bir dəyər biçilə bilməz."*

**Sokrat**

# Müəllimlikdən öyrəndiklərim

**Müəllim sözü ərəb dilindən tərcümədə "təlim edən, öyrədən" mənasını verir. Dünyanın bir sıra ölkəsində bu adın mənası eyni şəkildədir. Bu ada saysız - hesabsız şeirlər, hekayələr yazılıb, romanların müəllim qəhrəmanları çox zaman ehtiramla anılıb. İnsanlar bu sözü hörmət əlaməti olaraq adlardan sonra da işlədirlər. Yəni hörmətli olmaq müəllimliklə eyni anlamlıdır. Axı insan ona yazmağı, oxumağı, həyata baxmağı və ən əsası öyrənməyi öyrədən insana necə hörmət etməsin? Hesab etsək ki, insanlar ömürlərinin ilk və ən məhsuldar illərini öyrənərək keçirirlər, bu yolda da ən yaxın bələdçiləri müəllimləri olur. Ailədən sonra hansısa insanın həyatına şahid ola bilmək, əlbəttə ki, əvəzolunmaz hissdir. Əgər "Pafoslu, təmtəraqlı, minnətdolu cümlələr ən çox kimin üçün qurulmalıdır?"- soruşsanız, heç şübhəsiz, "müəllim üçün!" deyərəm. Amma mən belə etməyəcəyəm, bir müəllim olaraq müəllim sənətini tərifləmək əvəzinə bir az fərqli nöqtədən baxacağam.**

Müəllimlə şagird arasında heç kimin sezə bilmədiyi, anlamlandıra bilmədiyi bağlar olur. Müəllim sinif otağına daxil olmazdan əvvəl bütün gündəlik problemlərini, çətinliklərini, həyat mübarizəsini qapının kəndarında buraxır.



Çantasında kitablarından, qələmlərindən əlavə, birdən hansısa ac olar, yanında yeməyə nəyisə olmaz deyib mərhəmətlə yerləşdirdiyi "konfetləri", birdən hansısa yıxılar, üstü-başı çirklənər deyə əlavə salfetləri də olur. Beynində tədris proqramında qeyd edilən "öyrədiləcəklər siyahısından" əlavə, həyat kitabını oxuma düşüncələri də olur. Şagirdi hər dəfə qaçanda yıxılmır axı, kədərin küləyindən də yıxıla bilir.

Kədər demişkən, biz müəllimlər əslində şagirdlərimiz üzərində necə böyük iz qoyduğumuzu bilirikmi? Doğru olmayan yanaşma və rəftar onların ən başda akademik uğuru olmaqla, bir çox mövzuda zədə almasına səbəb olur.

***- İmtahan qorxusu;***

***- Auditoriya önündə çıxış etmək qorxusu;***

***- Özünə inamın itirilməsi və s.***

Biz ilk əvvəl öyrədərək, daha sonra inanaraq dəstək oluruq.

Bir dəfə belə ədalətsiz yanaşmamız onun üçün "mən bacarıqsızam" nəticəsinə gətirir, "imtahandan keçməsən, sənin üçün heç yaxşı olmayacaq" və bu kimi ifadələr imtahanı qorxulu yuxuya çevirir və ən önəmlisi lövhədə utandırdığımız hər uşaq əslində insanlar qarşısında danışmaqdan sıxılan birinə çevrilə bilir. Müəllimin bir ağırlığı, zəhmi olması gərəkdiyinə inanan biriyəm.



Tələbələrim də təsdiq edər ki, işimə son dərəcə ciddi yanaşan biriyəm. Amma hər biri mənim üçün xüsusi olan şagirdlərimin həm təhsil, həm də mənəvi dünyaları əziz olur. V. Suxomlinksi söyləyib ki: "əgər hansısa şagird müəllimin yaddaşında aydın qalmayıbsa, deməli, müəllim o şagirdə heç nə verməyib". Həqiqətən də hər bir şagirdim illər keçsə belə xatirimdə iz qoyur. Bəzən döyülən qapımın ardında sevdiyim çiçəkləri əllərində tutub, çox sevdiyim şagirdləri görürəm. Müəllim olmayan bilməz, mən onlarda hansı izləri qoymuşam, bilmirəm. Amma onların hər biri məndə dərin və doğma izlər qoyublar. Həyatımızdan onlarla insan keçir, gedir. Bəzisi sadəcə toxunur, bəzisi isə varlığıyla varlığımıza dəyər qatır. Bizim peşəmiz budur. Müəllim öyrədən peşədir, amma ən vacibi sevgini öyrəndiyim peşədir.

**Şagirdlərinin sevincini və uğurunu özünə bayram bilən bütün müəllimlər, bayramımız mübarək!**

**Aybəniz Rüstəmova,**
**Nərimanov rayonu 47 nömrəli məktəbin Azərbaycan dili və Ədəbiyyat müəllimi**

**5 oktyabr Azərbaycan müəlliminin peşə bayramıdır**

# Unudulmaz o müəllimlər

**...Dünyada müəllim peşəsindən, müəllim sənətindən müqəddəs ikinci bir peşə tanımıram. Çünki elə bir adam, elə bir insan yoxdur ki, məktəbə getməsin, parta arxasında əyləşib, müəllimin dərsinə qulaq asmasın. Və eyni zamanda biz uşaq olanda düşünmüşük ki, müəllim nə çörək yeyir, nə də su içir...**

...İlk dəfə məktəbə getdiyim gün indiyə qədər yadımdadı. Məktəbə məni rəhmətlik qardaşım Qürbət aparmışdı. Hamımız Bəhmənlidəki məktəbin həyətinə yığışmışdıq. Müəllimlər, valideynlər və şagirdlər "ilk zəngi" səbirsizliklə gözləyirdi.

Qardaşım da deyirdi ki, bax bu məktəbin direktoru Əvəz müəllimdi. Bax bu sizə birinci sinifdə dərs deyəcək Rza müəllimdi, bax bu Cəlal müəllimdi. O güləruz və hündür boy kişi isə Balaca müəllimdi. Gördüyün ortaboy, balaca kişi isə Nuğay müəllimdi. Qardaşım bir-bir kəndimizin müəllimlərini mənə tanıtdırırdı...

***...İlk dərsimiz başladı. Rəhmətlik Rza müəllim sinifə girdi. Elə uşaqlarımız vardı ki, ağlayırdı, eləsi də vardı ki, sakit durub Rza müəllimin keçdiyi ilk dərsə diqqətlə qulaq asırdı. Bax, beləcə bizim ilk dərsimiz oldu...***

...Və onda düşündüm ki, vallah nə Rza müəllim, nə Əvəz müəllim, nə Cəlal müəllim, nə də Balaca müəllim çörək yemir, su içmirlər. Çünki onlar o qədər böyük, o qədər qeyri-adi müəllimlər idi ki, bizim yaddaşımızda, düşüncəmizdə elə-belə qalmışdı: vicdanlı, savadlı və ədalətli!

...Orta məktəb illərində müəllimlərimizin necə əziyyət çəkdiyini və ipə-sapa yatmayan uşaqların adam elədiyinin şahidi olduq. Şahidi olduq ki, o müəllimlər əsəbləri pozula-pozula bütün vaxtlarını bizə həsr edə-edə özləri xəstəlik tapdı, biz də savad aldıq, adam olduq və istədiyimiz ali məktəbin tələbəsi adını qazandıq...

...Biz orta məktəbdə 10 il oxumuşuq və bu 10 ildə ancaq müəllimlərimizdən



tələbkarlıq, sevgi və bir də məsuliyyət görmüşük. Mənə dərs demiş müəllimlərin çoxu Allahın dərgahına qovuşub və həmişə də onların ruhuna dualar oxuyuram. Qalanlara isə cansağlığı diləyirəm. Düzdür, cəmi bizə dərs demiş iki müəllim qalıb: biri ibtidai sinif müəllimimiz Həqiqət xanım, biri də tarix müəllimimiz Məhər müəllim!

***...Bir daha dünyasını dəyişən müəllimlərimi yada salmaq istəyirəm: məktəbimizin direktoru Əvəz müəllim, direktor müavini Cəlal müəllim, Balaca müəllim, Nuğay müəllim, Cəmil müəllim, Məhəmmədəli müəllim, Qəzənfər müəllim, Ənvər müəllim, Məcnun müəllim, İsa müəllim, Əkbər müəllim, Həşim müəllim, Rza müəllim, Kəklik müəllim...***

...Bir sözlə, bizim üstümüzdə əziyyəti olan bütün müəllimləri bu peşə bayramında xatırlayırıq və onların ruhuna bir daha dualar oxuyuruq...

...Hər dəfə kəndimizə gedəndə 10 il oxuduğum məktəbin yanından keçəndə çox qəribə hisslər keçirirəm və adını çəkdiyim müəllimlərin hamısı yada düşür. Yada düşən həm də 10 il bir yerdə oxuduğumuz sinif yoldaşlarımızdı. Onların da bir çoxu Allahın dərgahına qovuşub...

...Bizim köhnə məktəbin yerində ikimərtəbəli məktəb inşa edilib. Amma köhnə məktəbin qoxusunu və iyisini az da olsa bu məktəbdən alırıq. Və köhnə məktəbimizin uçuq divarları və bir də xatirələri qalıb. Və o xatirələrə bizim 10 illik ömrümüzün anları, dəqiqələri, həftələri, ayları, illəri hopub...

...Və hər dəfə məktəbin yanından keçəndə düşünürəm ki, bu uçuq divarlardan xatirələr boylanacaq və bizi öz rəngarəng dünyasına aparacaq...

...Mənim həmişə çox sevdiyim, hörmət elədiyim bir müəlliməm olub - Həqiqət müəllimə! Dördüncü sinifdə bizə dərs deyib. Ali məktəbi yenicə bitirmişdi və ilk dəfə də bizə dərs deyirdi. Sinifimizdə ən zəif uşaqların "boş damarı"nı tapdı və onları əlaçıların cərgəsinə çıxardı. Və elə uşaqlardan biri də mən idim. Bu gün həyatda nə qazanmışamsa, bax, həmin müəlliməyə, Həqiqət müəlliməyə borcluyam!

Beş il Azərbaycan Dövlət Universitetinin (BDU-nun) jurnalistika fakültəsində təhsil almışıq və düz 5 il elmin Məkkəsi sayılan jurnalistika fakültəsində Azərbaycanın ən böyük ziyalılarından dərs almışıq, onların mühazirələrini dinləmişik, göstərdikləri yolla getmişik. Jurnalistika fakültəsi Bakı Dövlət Universitetində yeganə fakültədir ki, heç vaxt orada rüşvət, pul olmayıb. Çünki o fakültədə dərs deyən müəllimlər peyğəmbər kimi adamlar idi. Fakültəmizin dekanı Şirməmməd Hüseynov elə bir qayda-qanun, elə bir sağlam mühit yaratmışdı ki, bir kimsənin cəsarəti nə idi ki, tələbədən nəsə umsun...

***...Əksinə, onlar biz tələbələrə əmi olmuşdular, dayı olmuşdular, qardaş olmuşdular. Universitetdə bizə dərs demiş peyğəmbər kimi ziyalıların çoxu Allahın dərgahına qovuşub. Qoy onların da adını və soyadlarını xatırlayım ki, bu peşə bayramında bir daha ruhu şad olsun ki, tələbələri heç vaxt o böyük ziyalıları yaddan çıxarmır. Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Qulu Xəlilov, Famil Mehdi, Nəriman Zeynalov, Tofiq Rüstəmov... Bax, bu müəllimlər bizim üçün peyğəmbər idi. Çünki onların dünya malında gözü olmaz, hər bir tələbənin halal haqqını özünə verərdi. Bu gün də jurnalistika fakültəsində bizə dərs demiş müəllimlərimiz var. Cahangir Məmmədli, Nəsir Əhmədov, Yalçın Əlizadə, Mahmud Mahmudov, Akif Rüstəmov. Bax, bu müəllimlər sözün həqiqi mənasında tələbənin dəyərini və qiymətini verən böyük ziyalılardır və onlar bu gün də Şirməmməd Hüseynovun qoyduğu ənənəni davam etdirirlər.***

Mən onların adından "Qurana" əl basaram ki, bu ziyalılar əvvəllər də və indi də çox təmiz və vicdanla işləyiblər. Tələbədən heç bir şey ummayıblar. Xüsusi qürur hissi keçirirəm ki, bu ənənələr bu gün də jurnalistika fakültəsində yaşayır və davam edir...

...Mənim sevdiyim müəllimlər mənə ürəyim qədər çox yaxındır. Çünki onlar bizə düz yol göstəriblər, elm öyrədiblər. Və el dilində demiş olsaq, bizi adam ediblər. Əsas məsələ alim olmaq deyil, akademik olmaq deyil, professor olmaq deyil. Əsas məsələ odur ki, adam olasan! Adam olsan, alim də olmaq olur, professor da olmaq olur, nazir də olmaq olur...

**...Bu peşə bayramında bir daha bütün Azərbaycan müəllimini və mənə dərs demiş ali və orta məktəb müəllimlərimi təbrik edirik. Çünki Azərbaycan müəllimi Aqil Abbasın dili ilə demiş olsaq, Milli Qəhrəman adına layiqdir. Onlar az maaşla bizim balalarımıza, nəvələrimizə elm öyrədir, savad verir və düz yol göstərirlər. Bir daha peşə bayramınız mübarək, Azərbaycan müəllimi. Yazımı Musa Yaqubun "Müəllim ömrü" şeirindəki aşağıdakı misraları ilə tamalamaq istəyirəm:**

*Birinin şanında, böyüklüyündə,*
*Uçar, qanadlanar müəllim ömrü.*
*İnsanla həmyaşdır, ölməz, yorulmaz,*
*Bizimlə yol gedir, müəllim ömrü.*
*Hamıya pay verib ömründən bir az,*
*Məndədir, səndədir, müəllim ömrü...*

**Faiq QİSMƏTOĞLU**

## Elçin Alıoğlu: "İranın mollakratiyası iç üzünü göstərir..."

**"İranın rəsmiləri fasiləsiz olaraq Azərbaycana qarşı aqressiv ritorikalı bəyanatlar verir, İranın İrəvandakı səfiri erməni nazirlərlə dalbadal görüşərək onlara hər cür dəstək vəd edir. İranın mollakratiyası artıq bütün maskalarının çıxararaq iç üzünü göstərir və Ermənistanı açıq-aşkar dəstəkləyir".**

Bu sözləri tanınmış jurnalist Elçin Alıoğlu öz "Facebook" hesabından paylaşıb.



"Hələ utanmadan, abır etmədən, həyasızcasına deyirlər ki, "İran bölgədə hər hansı sərhəd dəyişikliyinə yol verməyəcək". Ay marazmatiklər, Zəngəzur dəhlizi sərhəd dəyişikliyini ehtiva etmir - anlayın artıq! Bundan başqa, ərazimizin 20 faizi tam 28 il erməni işğalında olanda İranın səsi niyə çıxmırdı? Dil boğaza qoymadan "müsəlman qardaşlığı"ndan, "hüseyniyyəçilik"dən və ilaxırdan vəzlər verən ayətullaların səsləri niyə çıxmırdı?

"Biz işğala qarşıyıq", "Qarabağ İslam torpaqlarıdır" tipli bəyanatlar, xütbələrlə bizi aldadacağınızı düşünürdünüz?

Olmaya İrandakı teokratikyanın mənsublarının Azərbaycanı hələ də "İran torpaqları", "Arran" saymalarını bilmirik?

Bu üzlə, bu məntiqlə, bu sifətlə, bu əxlaqla bizi "sionizmə satılmaq"da suçlayırsınız?

Hz.Hüseynin mübarək savaşı bizə örnəkdir, biləsiz.

Bizlər də taquta, Yezidə aldanmarıq - bunu da unutmayın.

Azərbaycanın müstəqiliyi, ərazi bütövlüyü, inkişafı və qüdrəti uğrunda çalışmağımız da bir cihaddır: həm fərzi-əyn, həm də fərzi-kifayə.

**Hz.Hüseynin, Hz.Zeynəbin, Hz.Həsənin və ən nəhayət, Hz.Əlinin mübarək isimlərini murdar əməllərinizə vasitə etməyə çalışmayın...",- deyə E.Alıoğlu paylaşımında qeyd edib.**

**AYXAN**

## "Qiraət zamanı şeiri yaşamaq, hiss etmək lazımdır"

*Həmsöhbətimiz gənc yazar, qiraətçi Turanə Şıxəliyevadır.*

**-Səs var deyə qiraətçi ola bilər yanaşması yanlışdır. Əslində, səsləndirəndə müəllif kimi o şeiri duymalısan. Bir növ özün də yenidən şeir yazırsan. Necə düşünürsünüz?**

- Tamamilə razıyam.Səsin gözəl olması heç də gözəl qiraətçi olmağımıza təsir etmir. Düşünürəm ki,qiraət zamanı şeiri yaşamaq, hiss etmək və ən önəmlisi onu anlamaq lazımdır.Nədən bəhs etdiyi dərk etmədiyimiz cümləri dinləyiciyə çatdıra bilmərik. Ümumiyyətlə qiraətlə məşğul olmaq həm zövq verir ,həm də çox məsuliyyətli işdir.Bir yazıçının,şairin bütün qəlbini verərək ərsəyə gətirdiyi möcüzəsi sənin səsində,nəfəsində canlanır və bunu aliləşdirmək də,adiləşdirmək də sənin əlindədir,məsuliyyəti sənin çiyinlərindədir.

**-Qiraət sahəsində özünüzü daha böyük səhnələrdə sınamaq fikriniz yoxdur?**

-Qiraət sahəsində özümü daha böyük səhnələrdə sınamaq fikrim var. Lakin buna öncə özüm inanmalıyam ki,artıq mən bu məsuliyyəti daşıyacaq gücdəyəm.İlk addımım isə Ağdaş Regional Mədəniyyət İdarəsi və ARB telekanalının Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Sözün sehri" müsabiqəsi olacaq.

**-Ağdaşda Bilik fondunun tabeçiliyində olan"Toxuculuq və xalçaçılıq" dərnəyinin rəhbərisiniz. Hazırki dövrdə bunu sənət kimi qorumağın, əlavə dərnəklər yaratmağın, maliyyə ayırmaq və.s hansı zərurətdən doğur?**

- Ağdaş Heydər Əliyev Mərkəzində bir çox kurslar təşkil olunur. Onlardan biri də "Toxuculuq və Xalçaçılıq"dır. Ucqar kəndlərdə elə xanımlar var ki,onlar hansısa bir ixtisasa yiyələnə bilməyiblər və bir peşəyə sahib olmaq istəyirlər. Onlar toxuma peşəsini öyrənərək həm öz maddi durumlarına dəstək olurlar , həm də bu bizim qədim zamanlardan qalma ən gözəl peşələrimizdəndir. Azərbaycan xalqı dünyanın hər bir yerində əl bacarığı,qabiliyyəti ilə seçilir.

**-Öz ixtisasınız ibtidai sinif müəllimliyidir. Müəllimlikdən imtina və bu sahəyə keçid. İbtidai sinif müəllimliyi çətin gəldi, ya hazırki işinizə olan həvəs?**

- Əslində düşünürəm ki, incəsənət sahəsində çalışmaq üçün təkcə bu sahəsinin təhsili almaq gərək deyil. Mənim incəsənətin hər sahəsinə həvəsim böyükdü və bu sahəyə yönəlməyim də böyük



sevgimdən, həvəsimdən doğdu. Hər bir sahənin mütəxəssisini məhz elə ibtidai sinif müəllimlərinin yetişdirdiyini,onların istiqamətləndirdiyini,sevdirdiyini düşünsək bir ibtidai sinif müəlliməsinin özünün incəsənətə meyl etməsi məncə yanlış sayıla bilməz.

**-Pandemiya dövründə bu kimi işləri necə yoluna qoyursunuz? Hər halda toxuculuq, rəqs sahəsində onlayn fəaliyyət qəribə gəlir adama...**

- Təəssüflər olsun ki, pandemiya bizimdə bir çox işlərimizə maneçilik törətdi. Ancaq yarıda qoyduğumuz işləri yenidən tamamlamaq üçün bütün gücümüzlə çalışacağıq.

**- Bu arada həm də rəqsdən də təlimlər keçirsiniz. Qiraət, toxuculuq, rəqs...Tam fərqli sahələr. Bu insan potensialını yarımçıq qoymaz?**

- Əslində fərqli sahələr deyil. Musiqini duyaraq sözün sehrinə düşə bilməyi bacaran insan üçün ilmələrlə yenilik ərsəyə gətirmək çox maraqlı olur. Düşünün ki, bəzən bir musiqi dinləyərkən hansısa şeiri özüm üçün səsləndirən zaman hansısa bir əl işi ,naxış hazırladığım zamanlar olub.Ya da milli ritmlərin hərəkətini edərkən o muqisinin ruhunu duyaraq cızma-qara etdiyim olub. Qısacası bacarıq və incəsənətin heç bir sahəsi bir-birindən əlaqəsiz deyil mənim üçün.

**-Öz şeirlərinizdən çox başqalarının şeirlərini səsləndirirsiniz. Öz şeirlərinizə olan ögeylik nə ilə bağlıdır?**

-Şeirlər yazıram. Daha doğrusu bəzən insan dilinə gətirə bilmədiyi və ya kimləsə bölüşə bilmədiyi hissləri kağız üzərinə köçürür. Mənim şeirlərimdə bu səpkidədir.Ögeylik deyil də,bəlkə elə doğmalıqdan və mənə,mənim öz dünyama məxsusluğunu itirməsin deyə gizlində saxlamağa üstünlük verirəm.

**Söhbətləşdi:**
**Emin Piri**

Hüsniyyə Əlizadə, Asya Zülfüqarqızı, Tahir, Xosrov Zülfüqaroğlu **Tahirə Ağamədqızına, Rasim Zülfüqarova, Arzu Adilqızına** əzizləri

**Adil bəyin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 126
Çapa imzalanmışdır:
04.10.2021